# Londondakı Azərbaycan məktəbində ana dili tədris edilir

Xaricdə yaşayan azərbaycanlı uşaqlar üçün ana dilinin və milli kimliyin qorunub saxlanılması xüsusi əhəmiyyət daşıyır. Londonda fəaliyyət göstərən Britaniya Avropa Azərbaycan Məktəbi (BEAS) bu istiqamətdə mühüm missiyanı yerinə yetirərək Azərbaycan dilinin, tarixinin və mədəniyyətinin gənc nəsillərə aşılanmasına töhfə verir.



Məktəbdə Azərbaycan dili və incəsənət fənnini tədris edən müəllim Nəzrin Qədimova AZƏRTAC-a müsahibəsində bildirib ki, əsas məqsəd uşaqlara ana dilini sevdirmək və onların Azərbaycan dilində sərbəst oxuyub-yazmalarına nail olmaqdır. "Bu gün sevinclə deyə bilərəm ki, uşaqlarımız Azərbaycan dilində sərbəst yazır və oxuyurlar. Onlara bu dərsi tədris etmək mənim üçün böyük fəxrdir. Uşaqların gündən-günə inkişaf etdiyini, dilimizə yiyələndiyini görmək qürurvericidir. Hesab edirəm ki, uşaqlarımız öz ana dilini hər zaman öyrənməli və yadda saxlamalıdır. Çünki bu, bizim milli ruhumuzdur və milli ruhu daim yaşatmalıyıq",- deyə müəllim qeyd edib. O bildirib ki, məktəbdə ana dili ilə yanaşı, şahmat, Azərbaycan tarixi, mədəniyyəti, milli rəqslər və kulinariya dərsləri də tədris olunur.

Məktəbdə Azərbaycan rəqsləri və incəsənətindən dərs deyən Aytac Ağamalı isə vurğulayıb ki, xüsusilə xaricdə doğulan uşaqlar üçün Azərbaycanın milli dəyərlərini unutmamaq çox vacibdir.

Məktəbin həmtəsisçisi Səbinə Quliyeva bildirib ki, Britaniya Avropa Azərbaycan Məktəbində hazırda 2-12 yaş arası uşaqlar təhsil alır və dərslər həftənin bazar günləri keçirilir. "Səviyyələrə uyğun şəkildə təşkil olunan dərslər vasitəsilə məqsədimiz uşaqlara erkən yaşlardan Azərbaycan dilini, mədəniyyətini və milli dəyərlərini aşılamaqdır. Valideynlərin böyük marağı və dəstəyi bizi daha da ruhlandırır. İnanırıq ki, xaricdə böyüyən uşaqlarımızın Azərbaycanla bağlarını qoruyub saxlamaları üçün bu cür təhsil ocaqları çox vacibdir", - deyə Səbinə Quliyeva vurğulayıb.

Yeni Azərbaycan.- 2026.- 16 yanvar, №9.- S.8.